# Kamran Əliyevsiz gələn il



**AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor, Kamran Əliyev dünyasını 23 dekabrda dəyişib. K.Əliyevin itkisi onu uzaqdan-yaxından tanıyan hər kəsin ürəyini sızladır.** Azərbaycan elminə verdiyi töhfələrlə, yazdığı kitablarla, insanlara qarşı olan xoş ünsiyyəti ilə çoxlarının rəğbətini qazanan K.Əliyev ömrünün 67-ci ilində həyatdan köçdü. K. Əliyev olduqca ağır, çətin günlər yaşamış, həyatın hər üzünü görmüş və yaşadığı sınaqlardan üzü ağ çıxmış şəxsiyyət idi. O, 1953-cü il mart ayının 5-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Diyadin kəndində dünyaya göz açmışdı. 1969-cu ildə Şərur rayonunun Tumaslı kənd orta məktəbində təhsilini başa vuraraq indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş və 1974-cü ildə universiteti fərqlənmə diplomu ilə başa vurmuşdu. K.Əliyev 1974-1976-cı illərdə Şərur rayonunun Xanlıqlar kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi çalışmış, həmin illər onun bədii yaradıcılığında, xüsusən hekayələrində də öz əksini tapmışdır.

O, 1976-1979-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirib. 1979-1992-ci illərdə həmin institutda kiçik elmi işçi, baş elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışan K. Əliyev, 1993-cü ildən Naxçıvan Universitetində müəllim, 1994-2001-ci illərdə həmin universitetdə Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, eləcə də tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır. Alim 2002-ci ildən AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, 2012-ci ildən isə Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərib.

K.Əliyev 1980-ci ildə filologiya elmləri üzrə fəlsəfə, 1990-cı ildə filologiya elmləri doktoru alimlik dərəcəsini, 2010-cu ildə isə professor elmi adını alıb və 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilib.

Alim 22 kitabın, o cümlədən 10 monoqrafiya, 250-yə yaxın məqalənin müəllifi olub. Onun rəhbərliyi ilə 10 fəlsəfə doktorluğu dissertasiyası müdafiə edilib. K.Əliyev, həmçinin 16 doktorluq və 49 namizədlik dissertasiyasının rəsmi opponenti olub.

O, 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Xeyirxah və alicənab insan, görkəmli alim Kamran Əliyevin parlaq xatirəsi onu tanıyanların qəlbində daima yaşayacaq.

K.Əliyev son on ildə ardıcıl olaraq "Kaspi" qəzeti ilə əməkdaşlıq edir, görkəmli ədəbiyyat adamının elmi və bədii yazıları bu qəzetdə yayımlanırdı.

Filologiya elmləri doktoru Sona Vəliyeva və "Kaspi" qəzetinin kollektivi K.Əliyevin ailəsinə, doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara səbir diləyir.

**Allah rəhmət eləsin!**

# Milli poeziyanın fenomeni

**Başa vurmaqda olduğumuz ilin son akkordları altında Xalq Bank Azərbaycan xalqının mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsi kimi nəcib və vətənpərvər missiyasına sadiq olaraq "Xalq Əmanəti" layihəsinin iyirminci, yubiley buraxılışını təqdim etmişdir. Xalq Bankın Baş ofisinin rəsm salonunda məhdud sayda qonaqlar - tanınmış şair və yazıçılar, naşir və ictimai xadimlər çevrəsində "Zəlimxan Yaqub. Seçilmiş əsərləri" poetik toplusunun təntənəli təqdimat mərasimi keçirilmişdir.**

Toplunu hazırlayan yaradıcı qrupa məşhur ədəbiyyatçılar, filoloqlar və söz ustaları daxil idi. Yubiley toplusunun tərtibatçısı kimi tənqidçi və publisist, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan və Z.Yaqub yaradıcılığının tədqiqatçısı, Aşıqlar birliyinin katibi, Əməkdar incəsənət işçisi Musa Nəbioğlu çıxış etmişlər. Son sözün müəllifi akademik Nizami Cəfərovdur. 565 səhifəlik kitab nəfis tərtibata malikdir.

Qısa ömrünün hər bir günü, şeirlərinin iztirablardan yaranan hər bir sətri ilə, niyyəti, amal və hissləri, bütün varlığı ilə Zəlimxan Yaqub sadəcə xalq şairi deyil, ümumxalq şairi adlanmağa layiqdir! İctimai xadim və müasir Azərbaycan şeirinin klassiki kimi şair gücünü doğma torpaqdan və xalq yaradıcılığından alırdı. O, xalqının zəngin folklor təfəkkürünü, yazılı ədəbiyyatın əsas ideyalarını və Azərbaycan dilinin olduqca geniş bədii imkanlarını özündə birləşdirərək ömrünü Vətənimizin milli-mənəvi dəyərlərinin tərənnümünə və Sözə xidmətə həsr etmişdir.

Zəlimxan Yaqub (Zəlimxan Yusif oğlu Yaqubov) 1950-ci il yanvarın 21-də Borçalı mahalının Kəpənəkçi kəndində doğulmuşdur. Onun ilk şeiri 1966-cı ildə sovet Gürcüstanının "Qələbə bayrağı" qəzetində çap olunmuşdur. Şair həm də praktik fəaliyyəti ilə cəmiyyətimizə xidmət edən fəal ictimai xadimlərdən biri olmuşdur. O, 1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1994-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Əfv komissiyasının üzvü olmuşdur. 1995-2005-ci illərdə Zəlimxan Yaqub Azərbaycan Respublikasının birinci və ikinci çağırış Milli Məclisinin deputatı seçilmişdir. 2008-ci ildən ömrünün sonuna kimi şair Azərbaycan Aşıqlar birliyinə sədrlik etmişdir. Müxtəlif illərdə, o, Azərbaycan Respublikasının "Şöhrət" və Gürcüstan Respublikasının "Şərəf" ordenləri ilə təltif olunmuş, 2005-ci ildə "Azərbaycanın Xalq şairi" fəxri adına layiq görülmüşdür.

Zəlimxan Yaquba çox istedadlı şair idi demək, milyonlar içərisindən seçilmiş birinə bəxş edilən İlahi vergini kiçiltmək olardı. Zəlimxan Yaqubun Azərbaycan poeziyasında yerini bilməkdən ötrü onun nəhəng irsini, xalq folklorunun bütün rəng çalarlarında bərq vuran zəngin dilini və poeziyanın janr təsnifatına sığmayan çoxşaxəli yaradıcılığını öyrənmək gərəkdir: o, sözün ən geniş mənasında məhəbbət şairidir! Əgər yaradıcılığına qlobal baxsaq, sırf sevgi şeirləri azdır onun, lakin mirası heyrətamiz dərəcədə mükəmməl, ülvi mənəviyyata malik və iffətlidir. Onun hər bir şeirində bütün məxluqata və Yer üzündə əsl kamillik nümunəsi xəlq etmiş Yaradana məhəbbətdən döyünən bir ürək var.

Zəlimxan Yaqub - vətənpərvər şairdir və onun üçün Vətən təkcə təbiət və bir coğrafiya deyil, eyni zamanda onlardan doğan milli-mənəvi bir enerjidir ki, onu da şair həmişə diri, qüvvətli və dözümlü görmək istəyir, xüsusən də ölkəsi və xalqı təhlükəyə məruz qalanda.

Zəlimxan Yaqub bütün türk dünyasının şairidir! O, mənsub olduğu türk etnosunun tarix və mədəniyyətinin əla bilicisi olmaqla yanaşı, özünün yaradıcı varlığında türk xalqlarının tarix, mədəniyyət və mentalitetini təcəssüm etdirən bir xadim və mütəfəkkirdir.




Şairin yaradıcı mirası müasir ədəbi və ictimai mühit tərəfindən şifahi xalq ədəbiyyatının fenomeni kimi qəbul edilir. Şairin dərin inancına görə onun şeirləri dövrün tələblərinə cavab verir və insanların qaynar duyğularını coşdurub millictimai şüura əhəmiyyətli təsir göstərə bilər. Təsadüfi deyil ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 50 illiyi münasibətilə şairə yazdığı məktubda demişdir: "Siz müasir ədəbiyyatımızda zəngin şeir ənənələrini yaşadan şairlər nəslinə mənsub olan sənətkarlarımızdansınız. Xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən şifahi xalq yaradıcılığından ustalıqla bəhrələnməklə Siz Azərbaycan poeziyasının inciləri səviyyəsinə qalxa bilən nəzm əsərləri yaratmısınız.

Azərbaycan Prezidenti İlham Əliyev haqlı olaraq Zəlimxan Yaquba "müasir ədəbiyyatın canlı klassiki" adlandırmışdı, çünki o, hər bir yeni şeiri ilə özünün ümumtürk ədəbiyyatının qədim köklərinə bağlılığını təsdiqləyirdi.

Zəlimxan Yaqub - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında ilk dəyərli əsərləri yaratmış şair-ideoloqdur. "Böyük həyat dastanı" adlı əsərində Onun milli dövlət quruculuğu missiyası ustalıqla tərənnüm edilir. Zəlimxan Yaqub - ana dilinin şairidir, onun zəngin söz ehtiyatı, qüsursuz poetik sintaksisi, öz gücünə görə xalq folkloruna bərabər bədii təriflər, məcaz və təşbehləri, təzətər intonasiyaları yüksək sənət tələblərinə cavab verir. Şairin ana dilinə sevgisi heç də rəsmiyyətçi deyil, o şüar kimi səslənmir, varlığının dərin qatlarından gələrək böyük bir səmimiyyətlə öz ifadəsini tapır. Canı və qanı ilə büsbütün xalqına bağlı, onun ruhunun ifadəçisinə çevrilmiş bir şairə böyük xalq məhəbbətinin sirri də məhz bundadır. Tarix sübut edir ki, xalq içərisindən çıxan və öz taleyini millətinin taleyi kimi yaşamış şair və mütəfəkkirlər heç vaxt unudulmur, onların yaradıcılıq arxivləri də heç kimin əlinin yetmədiyi işıq üzünə həsrət dolab və fondların mühafizə olunduğu bir obyektə çevrilmir. Əksinə, onların qapısı həmişə xalqın üzünə açıqdır, eynən millətin işıqlı ruhu və qəlbi kimi.

Aşıqlar birliyinin sədri kimi Zəlimxan Yaqub aşıq sənətinin təbliği və inkişafına böyük töhfələr vermişdir. Qədim aşıq sənətinin qoruyucusu kimi o, təvazökar bir kitab satıcısından xalq şairinə qədər böyük bir yol keçmiş, öz zəhmətsevərliyinə, şairlik vergisinə və Vətən sevgisinə görə şair və aşıqların hörmətini, və ən əsası da xalqın məhəbbətini qazanmışdır. Aşıq sənətini dərindən bilməsi və onu üzvi cəhətdən qavraması Z.Yaqub şeirlərinin lirizmini və xəlqi xüsusiyyətlərini daha da gücləndirir. Onun poetikası və şeir dilinin axıcılığı bəstəkar və aşıqları onun yaradıcılığına müraciət etməyə sövq edir.

Qeyd edək ki, "Xalq Əmanəti" layihəsi ASC "Xalq" Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar üç dildə - azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evləri və kitabxanalara, müxtəlif fondlara, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Ötən zaman ərzində Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, Tağı Tağıyev, eləcə də Ələkbər Rzaquliyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinovun, şəhid-heykəltəraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilmiş və bədii albomlar nəşr olunmuşdur. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, unudulmaz Mikayıl Müşfiqin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin, dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görmüşdür.

**Afət İSLAM**